**UOT 021**

*DOI: 10.25045/ASUCAAI.2025.60*

# KİTABXANADA UŞAQLAR ÜÇÜN İNFORMASİYA RESURSLARI VƏ RƏQƏMSAL MÜHİT

**Nadir İsmayılov İslam oğlu**
Pedaqogika üzrə fəlsəfə doktou, dosent
Bakı Dövlət Universiteti
nadir_ismayil56@mail.ru
**Daşqın Məhəmmədli Heydər oğlu**
Tarix üzrə fəlsəfə doktoru, Müəllimi
Bakı Dövlət Universiteti
dashqin.muhammedli@mail.ru
**Lamiyə Əliyeva Əlizamin qızı**
Doktorant
Bakı Dövlət Universiteti
Bakı, Azərbaycan
miss.forcher09@gmail.com

**Xülasə**

Məqalədə süni intellektin kitabxanalar və elektron resurslar üzərindəki tətbiqi və təsiri araşdırılır. Aparılan tədqiqatlar dünya kitabxanaları və nəşriyyat orqanlarında bu texnologiyadan istifadə nəticəsində mövcud vəziyyətin təhlilinə yönəlir. Məqalə uşaq və gənclərin oxu mədəniyyətinin təşviqində süni intellektin rolunu və bu sistemin müasir təhsil və informasiya sahələrinin inkişafında əhəmiyyətini aydınlaşdırır. Süni intellektin uşaq ədəbiyyatının inkişafına və müəlliflərin yaradıcılıq ənənələrinə təsirindən bəhs edilir. Məqalənin əsas məqsədi süni intellektin kitabxana işi sahəsində istifadəsini inkişaf etdirmək və bu texnologiyanın bədii ədəbiyyatda tətbiqini balanslaşdıraraq uşaq yazarlarının yaradıcılıq ənənələrini qoruyub saxlamaqdır.

**Nadir Ismailov**
**Dashgin Mahammadly**
**Lamiya Aliyeva**

## Information resources for children in libraries and the digital environment

**Abstract**

The article examines the application and impact of artificial intelligence on libraries and electronic resources. The research aims to analyze the current situation resulting from the use of this technology in libraries and publishing houses worldwide. The article clarifies the role of artificial intelligence in promoting the reading culture of children and youth, as well as its importance in the development of modern education and information sciences. It also discusses the impact of artificial intelligence on the development of children's literature and the creative traditions of authors. The main goal of the article is to enhance the use of artificial intelligence in the field of library work while preserving the

creative traditions of children's writers by balancing the application of this technology in children's literature.

**Надир Исмайлов**
**Дашгын Магамедли**
**Ламия Алиева**

## Информационные ресурсы для детей в библиотеках и цифровая среда

**Аннотация**

В статье рассматривается применение и влияние искусственного интеллекта на библиотеки и электронные ресурсы. Проведенное исследование направлено на анализ текущей ситуации вследствие применения этой технологии в библиотеках и издательствах по всему миру. В статье раскрывается роль искусственного интеллекта в формировании культуры чтения среди детей и молодежи, а также значение этой системы в развитии современных образовательных и информационных технологий. Обсуждается влияние искусственного интеллекта на развитие детской литературы и творческие традиции авторов. Основная цель статьи – развить использование искусственного интеллекта в сфере библиотечного дела и сохранить творческие традиции детских писателей, сбалансировав применение этой технологии в детской художественной литературе.

**Açar sözlər:** Süni intellekt, uşaq ədəbiyyatı, kitabxanalar, rəqəmsal xidmət, multimedia resursları, virtual oxucular.

**Key words:** Artificial Intelligence, Children's Literature, Libraries, Digital Services, Multimedia Resources, Virtual Readers.

**Ключевые слова:** Искусственный интеллект, детская литература, библиотеки, цифровые услуги, мультимедийные ресурсы, виртуальные читатели.

Azərbaycanda müəyyən edilmiş prioritet sektorlar üzrə süni intellekt sənayesinin, o cümlədən onun davamlılığının və rəqabət qabiliyyətinin təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası"nı [AR 2025-2028-ci illər üçün süni intellekt strategiyası, 2025] əsas götürən kitabxanalar bilik mənbələrinin qorunması, tənzimlənməsi, ötürülməsi və saxlanması sahəsində mühüm təsirə malikdir. Günümüzdə isə kitabxanalar ənənəvi materiallarla yanaşı, elektron mənbələri də özündə cəmləşdirir və texnoloji inkişafları izləyərək bilik əldə etməyi asanlaşdırmaq üçün müxtəlif rəqəmsal xidmətlər təqdim edir [Sivri, E., 2023, s. 176].

Son illərdə dünyanın müxtəlif ölkələrində kitabxanalar, nəşriyyat orqanları və bir çox elektron platformalarda süni intellektin istifadəsi genişlənməkdədir. Bu texnologiya oxucuların axtarış funksiyanını təkmilləşdirərək informasiya resurslarınadaha asan və sürətli çıxış imkanını təmin edir. Süni intellektin gələcəkdə düzgün və səmərəli tətbiq edilməsi virtual oxucuların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin bərabər hüquq çərçivəsində maariflənmə imkanlarından faydalanmalarına şərait yaradacaqdır. Müasir dövrdə isə bu texnologiya bir sıra platformalarda innovativ həllərin tətbiqinə yol açır. Bu istiqamətdə nümunə olaraq süni intellekt texnologiyasından

istifadə edən "Penguin Random House" [Penguin Random House] nəşriyyatını göstərmək olar. Bu nəşriyyat dünyada kitab nəşri və yayımı sahəsində lider mövqeyə malik olub, müxtəlif janrlarda rəqəmsal və audio kitablar təqdim edir. Nəşriyyat süni intellektin imkanlarından istifadə edərək veb-saytda kitabların audio xülasələrini və icmallarını virtual oxuculara təqdim edir.

Dünyada süni intellekt texnologiyası ilə işləyən elektron platformalar da çoxdur. Belə platformalardan biri də uşaq və gənclərin inklüziv təhsil prosesinə dəstək verən, sağlamlıq imkanları məhdud oxucular üçün xüsusi materiallar təklif edən "Easy Reader"dir. Bu platforma hər bir oxucunun fərdi maraqlarını nəzərə alaraq müxtəlif resurslar təqdim edir. Süni intellektin tətbiqi ilə elektron platformada virtual oxucular fərdi maraq və öyrənmə təcrübəsinə uyğun olaraq audio resursları tənzimləyə bilər. Məsələn, istifadəçi kitabı səsləndirən robotun səs tonunu, tempini, mətn ölçüsünü və rəngini dəyişdirə bilər. Əlavə olaraq, "audible.com", "learningally.org", "gutenberg.org" və s. kimi elekton platformalar da bu sahədə geniş istifadə edilir.

Süni intellekt kitabxanalarda innovativ və optimal xidmət təqdimatını təmin etmək üçün geniş potensiala və perspektivli tətbiqlərə malik olan texnologiyadır. Buna görə də, süni intellektin tətbiq edilməsinin əsas məğzi onun insanlardan fərqli olaraq daha az səhvə yol verməsi və "7/24" işləyə bilməsidir [Omame, İ.M., Alex-Nmecha, JC., 2020, s. 122].

Dünyada süni intellekt texnologiyasından istifadə edən kitabxanalarda mövcuddur. Belə kitabxanalara Nyu York İctimai Kitabxanası, Britaniya Kral Kitabxanası, Finlandiya Milli Kitabxanası, Avstraliya Milli Kitabxanasıvə digər nüfuzlu kitabxanaları misal göstərmək olar. Bu kitabxanalar süni intellekt texnologiyası əsasında rəqəmsal resurslara çıxışı asanlaşdırır və inklüziv təhsil mühitini dəstəkləyir.Dünya kitabxanalarında süni intellekt sahəsində innovativ təcrübələrə əsaslanaraq respublikamızda da bu sistemin tətbiq edilməsi və inklüziv təhsilin təşviqi üçün mühüm addımlar atılmalıdır. Günümüzdə kitabxana proseslərinin avtomatlaşdırılması nəticəsində elektron kataloq, elektron məlumat bazaları və multimedia resursları kimi rəqəmsal informasiya mənbələrivirtual oxucuların istifadəsinə verilməkdədir. Kitabxanalar istifadəçilərə onlayn xidmət etməklə zaman və məkan aslılığı olmadan informasiya resurslarına çıxış imkanı yaradır. Bu istiqamətdə respublikamızda Azərbaycan Mili Kitabxanası, Azərbaycan Respublikası Prezident İşlər İdarəsinin Prezident Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası və s. kimi kitabxanalar fəaliyyət göstərir ki, gələcəkdə bu kitabxanalara rəqəmsal xidmətlərlə birgə süni intellektin tətbiqi kitabxana fondunun kataloqlaşdırılması,sənəd axınının idarə edilməsi və virtual istifadə qaydalarının təkmilləşdirilməsi kimi yeniliklərə yol aça bilər. Respublikamızda fəaliyyət göstərən nüfuzlu kitabxanalarda mövcud olan elekton resurslar süni intellekt olmasa da, bu materiallar gələcəkdə həmin texnologiya vasitəsilə daha da təkmilləşdirilə bilər. Elektron resurslar yalnız informasiyanı texniki və digər (coğrafi, dil və s.) manеələr baxımdan əlçatan edir. Süni intellekt isə bu resursların informasiya tələbatçılarına çatdırılması üçün interaktiv və fərdiləşdirilmiş öyrənmə mühiti yaradır. Bu sistemin gələcəkdə kitabxana işində tətbiq edilməsi uşaq və gənclərin maariflənməsi prosesinə təkan verəcəkdir. Məsələn, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının veb-saytında [F.B.Köçərli ad;na kitabxana] virtual oxucular üçün multimedia resursları istifadəyə verilib. Bu resurslara süni intellekt tətbiq edilməyib, onlar sadəcə elektron formatda oxuculara təqdim edilib. Belə ki, kitabxananın clb.az saytının"Multimedia" bölməsində virtual turlar, audio kitablar, uşaq mahnıları, uşaq lətifələri, cizgi

filmlər və kitabların video icmalları mövcuddur. Bununla yanaşı, sağlamlıq imkanları məhdud uşaqlar üçün də elektron resurslar istifadəyə verilib. Görmə məhdudiyyəti olan uşaqlar üçün 17 MP3 formatlı materiallar, eşitmə və nitq məhdudiyyətli uşaqlar üçün isə 17 MP4 video məzmunlu multimedia resursları mövcuddur. Bu resurslar inklüziv öyrənmə və təhsilin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir və gələcəkdə onların sayı artırılaraq süni intellekt texnologiyaları vasitəsilə daha da təkmilləşdirilə bilər.

Süni intellekt texnologiyası rəqəmsal kitabxana mühitində mütaliənin inkişafı və informasiya resurslarının funksional istifadəsində aşağıdakı innovasiyaları təklif edir:

- Virtual istifadəçilərin axtarış funksiyasına uyğun olaraq kitablar tövsiyə etmək. Bu prosesdə kitabxana saytının səsli köməkçisi ola bilər və uşaqlar sadəcə danışaraq istədiyi kitabları tapa bilərlər;

- Elekton kitabları istifadəçilərə tanıtmaq. Süni intellekt kitabxananın veb saytında təqdim edilən kitab bələdçisini analiz edə bilər. Belə ki, clb.az saytında mütəmadi olaraq kitabxana fonduna yeni daxil olan və uşaqların yaş kateqoriyasına uyğun kitablar təqdim edilir.Bu hissədə materialların xülasələri süni intellekt vasitəsilə səsləndirilə bilər. Məsələn, oxucu fonda yeni daxil olan kitabın üzərinə klik etməklə, o kitabın annotasiyasını oxumaqla bərabər, səsli versiyasını da dinləyə bilər. Bu isə materialın təkcə vizual olaraq deyil, auditiv öyrənmə metodu ilə məninsənilməsinə imkan yaradacaqdır;

- Oxu vərdişlərini inkişaf etdirmək. Hər bir uşağın oxu sürəti və səviyyəsi fərqlidir. Bu istiqamətdə süni intellekt vasitəsilə uşaqların oxu sürətləri və vərdişləri inkişaf etdirilə bilər. Məsələn, süni intellekt oxucuya bir neçə qısa mətnli kitablar təklif edir. Uşaq isə təklif edilən elektron resurslardan birini seçməli, səsli və sürətli oxumaldır. Proses zamanı vaxt məhdudiyyəti tətbiq edilə və oxucunun nə qədər müddət ərzində neçə söz oxuduğu, bitirdiyi vaxtı izlənilə bilər. Bu metod kiçik yaşlı oxucular üçün fərdiləşdirilmiş öyrənmə təcrübəsi təqdim edərək uşaqların mütaliə prosesini daha müsbət hala gətirəcəkdir;

- Sağlamlıq imkanları məhdud olan uşaqların maariflənmə prosesinin asanlaşdırılması. Kitabxananın elektron kataloqunda mövcud olan informasiya resursları ilə yanaşı MP3 və MP4 formatlı materialların sayı çoxaldıla və tədris materialları süni intellekt tərəfindən səsləndirilə bilər. Bu sistemin üstünlüyü isə süni intellektin köməyi ilə informasiya resurslarının müxtəlif səs tonlarında və dillərdə oxumaq imkanı yaradaraq uşaqlar üçün yeni oxu təcrübəsi təqdim etməsidir;

- Azərbaycanda uşaq və gənclərin maariflənməsində kitabxanalarla yanaşı, multimedia resurslarını təqdim edən elektron platformalar da mövcuddur. Buna nümunə olaraq, azerbaijan.az, danışankitab.az saytlarını göstərmək olar. Lakin bu platformalarda mövcud olan elektron resurslara süni intellek tətbiq edilməyib. Məsələn, danışankitab.az platforması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Görmə imkanları məhdud şəxslər üçün müyəssər formatlı nəşrlərin hazırlanması” layihəsi çərçivəsində yaradılıb [Danışan kitab].

Danışan kitab platforması tanınmış aktyorlar və qiraətçilər tərəfindən səsləndirilən kitablar təqdim edir. Daxil edilən resurslar əsasən tədris materialları və bədii ədəbiyyat nümunələrindən ibarətdir. Saytın mobil tətbiqi də mövcuddur. Yaxın gələcəkdə bu sistemə süni intellektin tətbiq edilməsi əsasında audio kitabların sayı artırıla bilər. Belə səsli kitablar kiçik yaşlı oxucular üçün daha asan əldə edilə bilən resurslardır.

Süni intellekt oxucuların fərdi seçimlərindən asılı olaraq kitabların (sənədlərin) səsləndirilməsində müxtəlif səs tonları təklif edir. Bu texnologiya eyni zamanda, kitabları müxtəlif dillərdə də səsləndirə bilər. Bunun üstünlüyü isə oxucuların öyrənmə prosesini daha interaktiv və effektiv halla gətirməkdir. Ancaq bu sistemin bütün janrlarda tətbiq edilməsi məqsədəuyğun deyil. Məsələn, bədii əsərlərin - şeir, hekayə və nağıllar kimi ədəbi nümunələrin qiraətçilər tərəfindən səsləndirilməsi əsərdəki hissləri, duyğuları dinləyiciyə daha aydın çatdıra bilir. Süni intellekt isə insan zəkasını təqlid edir və qiraətçi kimi sözlərdəki vurğunu, intonasiyanı və s. daha dəqiq ifadə edə bilmir. Bədii mətnlərin insan tərəfindən səsləndirilməsi əsəri daha unikal edir. Tədris materialları isə süni intellektə əsaslanan texnologiyalar vasitəsilə səsləndirilə bilər. Uşaq ədəbiyyatında süni intellektin rolunun artması müəlliflərin yaradıcılıq fəaliyyətlərinə də müxtəlif yollarla təsir edə bilər. Bir tərəfdən süni intellekt alətləri yaradıcılıq prosesində köməkçi rol oynayarq bu prosesi asanlaşdıra və yazıçının yaradıcılıq blokasdasını aradan qaldırmağa kömək edə bilər. Digər tərəfdən, bu texnologiya bədii yaradıcılığa ictimai qiymətlə narahatlıq yaradacaqdır. Süni intellekt hekayələr yaratmağa qadir olduqdan sonra müəlliflərin yazdıqları hekayə və digər ədəbi nümunələr oxucular tərəfindən az qiymətləndirilə bilər. Gələcəkdə çıxış yolu olaraq, müəlliflər süni intellektlə birgə işləməyi öyrənmək və bu texnologiyanın təkrarlaya bilməyəcəyi ədəbi nümunələr yaratmaq kimi bacarıqlar inkişaf etdirilməlidir [The rise of AI in childrens literature].

Nəticə olaraq, süni intellektin kitabxanalarda, uşaq ədəbiyyatında və digər elektron resurslarda tətbiq edilməsi müasir təhsil və informasiya sisteminin inkişafı üçün yeni perspektivlər yaradır. Bu texnologiya uşaq və gənclərin mütaliə vərdişlərini dəstəkləsə də, müəlliflərin yaradıcılıq dəyərlərinin inkişafına mənfi təsir göstərə bilər. Bu baxımından süni intellekt yalnız tədris və informasiya prosesində tətbiqi ilə kifayətlənməli, bədii ədəbiyyatın yaradıcılıq aspektlərinin qorunması nəzərə alınmaldır.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası. (2025, Mart 19). *Azərbaycan Respublikası Prezidenti Rəsmi Sənədlər,* (24 s.). https://static.president.az/upload/Files/2025/03/19/5a0fb1886a7316cb1b95458f366c1bd6_3415396.pdf (20.03.2025)
2. Sivri, E. (2023). Kütüphanelerde yapay zekanın geleceği: Farklı alanlardakı potansiyel uygulamalar ve yeni kullanım alanları oluşturma. Kütüphane, arşiv ve müze araştırmaları dergisi, 176.
3. Omame, İ.M., Alex-Nmecha, JC. (2020). Artificial intelligence in libraries. Managing and adapting library information services for future users, 122.
4. The rise of AI in childrens literature: threat or opportunity//https://www.bookillus.com/blog/the-rise-of-ai-in-childrens-literature-threat-or-opportunity
5. F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası. https://clb.az/
6. “Danışan kitab” layihə haqqında. https://danisankitab.az/about
7. Penguin Random House. https://www.penguinrandomhouse.com/